**Nigar Katib İBRAHİMLİ**
AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin doktorantı
E-mail:nigar.ibrahimli.91@mail.ru
Orcid ID: 0000-0003-3646-2779

# ƏDƏBİYYAT MUZEYLƏRİNDƏ EKSPOZİSİYA TƏRTİBATININ XARAKTERİK CƏHƏTLƏRİ

**Xülasə.**

Məqalədə ədəbiyyat muzeylərində ekspozisiya tərtibatının əsas prinsipləri və bu sahəyə xas olan xarakterik xüsusiyyətlər təhlil olunur. Ədəbiyyat muzeyləri yalnız ədəbi irsin nümayiş etdirildiyi məkanlar deyil, həm də tarixi yaddaşın qorunması və maarifləndirici funksiyaların həyata keçirildiyi mühüm mədəniyyət ocaqları kimi qiymətləndirilir. Bu kontekstdə ekspozisiyanın struktur quruluşu, məzmun və forma vəhdəti, estetik təqdimat və müasir texnologiyaların tətbiqi xüsusi önəm kəsb edir. Müəllif ekspozisiyaların tərtibatında milli-mənəvi dəyərlərin və elmi yanaşmaların uzlaşdırılmasının vacibliyini vurğulayır, həm yerli, həm də beynəlxalq təcrübəyə əsaslanaraq mövzuya sistemli yanaşma nümayiş etdirir. Tədqiqatın nəticələri ekspozisiya dizaynı sahəsində nəzəri-praktik əsasların formalaşdırılması baxımından əhəmiyyətlidir.

Tədqiqat mövzusunun aktuallığı ondan ibarətdir ki, Azərbaycan və dünya təcrübəsində ədəbiyyat muzeylərinin ekspozisiya tərtibatı müxtəlif yanaşmalarla formalaşır və bu sahədə sistemli elmi təhlillərə ehtiyac duyulur. Tarixi şəxsiyyətlərin həyat və yaradıcılığına dair ekspozisiyaların tərtibatında milli, estetik və funksional meyarların uzlaşdırılması, müasir texnoloji vasitələrin tətbiqi, interaktiv yanaşmaların işlənməsi bu sahənin dinamik inkişafını təmin edən əsas amillərdəndir.

Məqalənin məqsədi ədəbiyyat muzeylərində ekspozisiya tərtibatının formalaşma prinsiplərini, onların struktur xüsusiyyətlərini və təqdimetmə metodlarını təhlil etmək, mövcud təcrübələri müqayisəli şəkildə nəzərdən keçirməklə, bu sahədə nəzəri və praktik yanaşmaları sistemləşdirməkdir.

**Açar sözlər:** ədəbiyyat muzeyi, ekspozisiya tərtibatı, muzeyşünaslıq, mədəni irs, təqdimetmə prinsipləri

**UOT: 060301**
**DOI:** https://doi.org/ 10.54414/NKRE7463

## Giriş

Ədəbiyyat xalqın mənəvi yaddaşı, tarixi və mədəni kimliyinin ifadə vasitəsidir. Bu mənada, ədəbiyyat muzeyləri təkcə yazıçı və şairlərin həyat və yaradıcılığını əks etdirən məkanlar deyil, həm də ictimai yaddaşın formalaşdırılması, qorunması və gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyət daşıyan elmi-mədəni qurumlardır. Belə muzeylər tədqiq olunan dövrün ədəbi və mədəni reallıqlarını nümayiş etdirərək, tarixi və bədii irsin interaktiv təqdimatını təmin edir.

Müasir dövrdə muzeylərin funksiyaları yalnız eksponatların qorunub saxlanılması ilə məhdudlaşmır, onlar həm də ictimai maarifləndirmə, tədqiqat və təhsil sahəsində mühüm rola malikdirlər. Bu baxımdan, ekspozisiya tərtibatının düzgün qurulması, muzeyin elmi və estetik funksiyalarının həyata keçirilməsi baxımından əsas komponentlərdən biri kimi çıxış edir. Ekspozisiyanın struktur-kompozisiya quruluşu, estetik prinsiplərə uyğun təqdimatı, informasiya bolluğu ilə yüklənmədən ziyarətçiyə aydın və anlaşıqlı formada təqdim olunması ekspozisiya tərtibatının əsas məqsədlərindəndir.

**Ədəbiyyat muzeylərinin ümumi xüsusiyyəti.** Ədəbiyyat muzeylərinin ümumi xüsusiyyəti onların tematik yönümlü olmasıdır. Bu tip muzeylərin ekspozisiya mövzusu müxtəlif eksponatların sintezi ilə təmsil oluna bilər: bunlar təkcə kitablar deyil, həm də məişət əşyaları, təsviri sənət əsərləri və kağız daşıyıcılar üzərində olan sənədlərdir. Yaxşı tərtib edilmiş ədəbiyyat ekspozisiyası bir sıra mövzuları işıqlandırır, tamaşaçıları əsərlərin aid olduğu

dövrün tarixi konteksti ilə tanış edir, əsərdə müəllifinin həyatından bəhs edərək, onun daxili dünyasını ziyarətçilərə çatdırır. Çoxları üçün muzey hələ də sənət əsərlərinin, qiymətli və nadir əşyaları görə bilmək üçün yer olaraq qalır. Ümumiyyətlə qeyd etmək lazımdır ki, əksər ədəbiyyat muzeylərinin kolleksiyaları - sənədlər və kitablardan, eləcə də əlyazmalardan ibarətdir. Qeyri-maddi mədəni irsin məcmusu olaraq, onları həm "göstərmək" həm də "görmək" çətin prosesdir. Buradan yola çıxaraq insanlara elə gələ bilər ki, bu da elə ədəbiyyat profilli muzeylərin zəif cəhətidir, lakin bu muzey işçılərinin işini daha da zənginləşdirir.

Ədəbiyyat əsərləri abstrakt olduğuna görə vitrində nümayiş edilməsi və ya divara asılması mümkün deyil, məsələnin həlli üçün burada muzey işçiləri yaradıcı düşüncələrini işə salmalıdırlar. Dünya praktikasına nəzər saldıqda, bir çox ədəbiyyat muzeyləri muzeyin elmi -maarifçilik funksiyasından istifadə edərək kütləvi oxu tədbirləri, kitab klubları, təqdimatlar təşkil edirlər. Belə kütləvi tədbirlər muzey kommunikasiyası üçün əlavə fürsətdir, çünki burada tamaşaçı ilə qarşılıqlı əlaqə asanlaşır və muzey mühitində təcrübələr paylaşılır. Ədəbiyyat insanın, cəmiyyətin hisslərini, düşüncələrini, arzu və istəklərini obrazlı şəkildə əks etdirən söz sənətidir. Rəssam rənglərlə rəsm çəkir, ədib sözlərlə əsər yaradır, ona görə də Ədəbiyyat və İncəsənət muzeyləri çox yaxındır. Günümüzdə bu ikiprofilli muzeylər arasında sərhədlər daha da silinir, çünki bu və ya digər şəkildə incəsənət estetik tərki dünya prosesisdir və hər iki profilli muzeylər yaradıcı proses zamanı bu prinsipləri nəzərə alaraq ekspozisiyasını qurur.

Rus yazıçı, ədəbiyyatşünas, ssenarist və tənqidçi Viktor Borisoviç Şklovskinin fikirlərinə görə, “Yaradıcılıq prosesinin məqsədi əşyanın xüsusiyyətlərinin müəyyən edilməsi deyil, əşyanın insana hiss etdirdiyi təəssüratı “baxış tərzi” kimi çatdırmaqdır [2, s. 214-225]. Ədəbiyyat profilli muzeylərdə əşyalar (əlyazmalar və s.) üzərində aparılan iş prosesinin nümayiş olunması klassik sərgilərdən daha çox maraq cəlb edir. Belə formada keçirilən sərgilərdə ziyarətçilər alternativ təcrübə qazanaraq ədəbiyyat muzeyinin əşyaları üzərində klişe olmuş “oxumaq” funksiyasını götürür. Ədəbiyyat muzeyləri müəyyən profilə aid olduğu üçün, kütlənin dar çərçivəsinin marağına yönəlmişdir. Beləliklə, muzeyin qonaqları, xüsusən də müəyyən bir yazıçının yaradıcılığına həsr olunmuş muzeyin ziyarətçisi, müəllifin əsərləri ilə öncədən tanış olduğu və oxuduğu hekayələrlə emosional bağ qura bildiyi üçün, o gerçəklik və xəyali dünyanın vəhdətinə daxil olmaq fürsəti qazanır.

Ədəbiyyat muzeylərinin prototipləri qədimi monastır və kilsə əlyazmalarının anbarları, habelə şəxsi, dövlət və kilsə kitabxanalarının kolleksiyaları hesab edilirdi. İlk ədəbiyyat muzeyləri memorial, yəni xatirə muzeyləri kimi meydana çıxdı. Muzey binası, onun daxili interyeri, şəxsi əşyalar, ətraf mühitin detalları maraqlı xüsusiyyətə malikdir, onlar burada yaşayan insanlar haqqında danışaraq, keçmişin koloritini çatdırır. Buna görə də bu mədəni irsin davamçıları çalışırdılar ki, şairin evini, iş otağını, əlyazmalarını, kitablarını, hətta istifadə etdiyi məişət əşyalarını dəyişiklik olmadan qoruyub saxlasınlar. Çünki muzeyə daxil olan hər bir əşya, məişət funksiyasını itirərək tarixin mühüm şahidi hesab olunurlar.

Müasir ədəbiyyat muzeyləri həm də elmi – tədqiqat müəssisələri kimi fəaliyyət göstərir, əşyalar haqda məlumatları toplayaraq yazıçı və şairlərin həyat və yaradıcılığı ilə bağlı ekspozisiyalar hazırlayır. Bundan əlavə, ədəbiyyat muzeyləri mühazirələr və ziyarətçilərin görkəmli ədəbiyyat və incəsənət xadimləri ilə görüşlərini təşkil edir. Fəaliyyət xarakterinə görə ədəbiyyat muzeyləri tarixi və xatirə muzeylərinə bölünürlər. Tarixi - ədəbiyyat muzeyləri, ədəbiyyatın inkişaf yolunu tarix aspektdən açan materiallar haqda məlumatları toplayır, analiz edir və ədəbiyyat nəzəriyyəsi ilə məşğul olur. Elmi tədqiqatların nəticələri kolleksiyalarda, fərdi əsərlərdə, kataloqlarda, əlyazmaların təsvirlərində və yazıçıların Şəxsi kitabxanalarında öz əksini tapır. Ədəbi - xatirə muzeylərinə, memorial komplekslər – binalar, mənzillər, mülklər, yazıçıların şəxsi əşyaları, habelə əlyazmalar, avtoqraflar, sənədlər, yaşadığı dövrdə yaratdığı nəşrlər və onun həyat - yaradıcılıq yolundan bəhs edən ekspozisiya daxildir. Ekspozisiyalarda xatirə əşyalarından başqa, təsviri materiallardan fotolar, rəsmlər və qravürlərdən istifadə olunur. Muzeylər həmçinin başqa saxlanclardan, müəyyən dövrə xas olan əşyaları əldə edir və bəzi əşyaların surətlərini də hazırlayırlar. Muzey işçiləri əşyaları orijinalları ilə birgə istifadə edərək tarixi dövrü yenidən qurmağa, yazıçının yaradıcılıq məkanını təkrarlamağa çalışırlar.

Ədəbi muzey işinin digər bir sahəsi də ədəbiyyat obrazlarına həsr edilmiş ayrı muzeylərin təşkil olunmasıdır. Məsələn, İngiltərədə (London) , ingilis yazıçı Artur Konan Doylun yaratdığı xəfiyyə obrazına həsr edilən Şerlok Holms muzeyidir. Muzey Beyker Street küçəsində yerləşir. Artur Konan Doylun əsərlərinə əsasən XIX əsrin əvvəllərində Şerlok Holms və dostu Həkim Uatson bu küçədə yerləşən evdə yaşamışlar. Əsərin yazıldığı vaxtda Londonda belə ünvan mövcud deyildi və bu ünvana gələn məktublar, müraciətlər uzun illər ərzində başqa poçt nömrəsinə gedirdi və gələn məktubları ayırmaq üçün xüsusi vəzifə təyin edildi. Muzey yaradılan zaman qanuni əsasla Şerlok Holmsun "221b Baker Street" firması yaradıldı və nəticədə ev rəsmi poçt ünvanını ala bildi. Muzeyin interyeri əsərdə təsvir edildiyi kimidir, eyni zamanda obrazların əsərdə qeyd olunan əşyalarını, Holmsun skripkası, papağı, ov qamcısı, məktubları, kimyəvi təcrübələr üçün istifadə etdiyi ləvazimatları, Vatsonun revolveri və digərlərini canlı görmək mümkündür. Belə tip muzeylərdə "muzey marketinqi" metodundan istifadə edərək muzeyin ziyarətçilərini həm əsərin real əksi olan ekspozisiyanı gəzməyə təşviq edirlər həmçinin də personajlarla əlaqəli olan suvenirlərin və bukletlərin satışını təşkil edirlər. Bundan başqa son zamanlar ədəbiyyat muzeyləri öz adlarına " Mədəniyyət mərkəzi" söz birləşməsini də əlavə edərək, ədəbi birliklərin, poetik dairələrin fəaliyyətinə töhfə verir, muzey çərçivəsində musiqi konsertləri, şeir axşamları və yeni kitabların təqdimatlarını təşkil edirlər.

Müasir dövrdə ədəbiyyat muzeyləri hər kateqoriyadan olan ziyarətçiləri qəbul etməyə və onların müxtəlif müraciətlərinə cavab verməyə hazır olmalı, potensial auditoriyanın ola biləcəyi internet məkanına çıxışı olmalıdır. Muzeylərin yaradılması ənənəsi maddi mədəniyyətin qorunmasına yönəldilmişdir. Ədəbiyyat muzeylərində qeyri-maddi mədəniyyət maddi mədəniyyət nümunələri ilə eynidərəcəli bəzən də daha əhəmiyyətlidir. Bu bir tərəfdən, ekspozisiya və sərgilərin yaradılmasını, kolleksiyalar üçün əşyaların seçilməsini çətinləşdirir. Digər tərəfdən, bu muzey işçilərinə əşyalarının interpretasiyası və yaradıcı axtarışlar üçün daha çox imkan verir. Həmçinin ədəbiyyat muzeylərində digər muzeylərə nisbətən bələdçi daha xüsusi rol oynayır, çünki çox vaxt bələdçi mediator olaraq, ekspozisiyanın görünən tərəfini, yəni sərgilənən maddi mədəniyyəti yazıçının düşüncə, həyat tərzi və yaradıcılığı haqda hekayə ilə əlaqələndirə bilən vasitəçidir. Misal üçün Tolstoyun ev muzeyində klassik xatirə ekspozisiyası qurulmuşdur, yaxınında yerləşən Kuzminlərə məxsus tikilidə isə "İncəsənət nədir?" adlı ekspozisiyada əsas ekskursiya mətninə əlavə olunan ekrandaki videoçarxlar nümayiş edilmişdir. Bu muzeyin digər yeni istiqaməti xüsusi multimediya proqramlarıdı. Belə xüsusi proqramlardan ilki "Dom probel" adlı lahiyə oldu, hansı ki Lev Tolstoyun itirilmiş əmlak obyektlərindən biri olan, doğulduğu evinin obrazının yenidən yaradılması idi. Bir sıra layihələr ekspozisiya materiallarının fotolarından, yazıçının kitabxanasından, ailə portretlərini istifadə edərək, Tolstoy ailəsinin tarixini haqda danışır. Bu yolla Yasnaya Polyanaya gələ bilməyənlər üçün muzey kolleksiyasını daha əlçatan edirlər.

Azərbaycanda fəaliyyət göstərən ədəbiyyat profilli muzeylər. Ədəbiyyat muzeylərindən danışarkən ölkəmizin ədəbi irsinin qorunub saxlanılmasında xüsusi rolu olan Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyini xüsusi ilə qeyd etmək lazımdır. Ədəbiyyat profilli muzeylərin təsnifatına nəzər saldıqda görürük ki, muzeydə N.Gəncəvi irsi ilə bərabər, kompleks şəkildə birləşdirərək, Azərbaycan mədəniyyətinin önəmli şəxsiyyətlərinin ədəbi irsini vahid məkandan geniş kütlələrə çatdırır. Muzey özünəməxsus xarici və daxili interyeri və memarlığı ilə digər ədəbiyyat profilli muzeylərdən fərqlənir. Proqressiv inkişaf yolu keçərək muzeyin ekspozisiya tərtibatı yenidən təşkil olunmuş, sərgiləri isə daha maarifləndirici və hər kateqoriyadan olan ziyarətçilərə adaptasiya olunmuş şəkildə qurulmuşdur. Ekskursiya zamanı müxtləlif tarixi dövrə aid yazıçı və şairlərin həyat və yaradıcılığı ilə tanış olaraq, onların Azərbaycan və dünya ədəbiyyatına verdiyi töhfələri görə bilərik. Müasir muzey sisteminə inteqrasiya edərək audiovizual texnologiyalar vasitəsilə sərgilənən əsərləri cəlbedici və əlçatan edir. Muzeyin elmi – kütləvi fəaliyyət spektoruna, müxtəlif dillərdə ekskursiyaların təşkili, tələbələrə, tədqiqatçılara və geniş ictimaiyyətə yönəlmiş müxtəlif maarifləndirici proqramların, seminarların, mühazirələrin hazırlanması da daxildir. Muzey qlobal əhatəsini və beynəlxalq əlaqələrini illər ərzində genişləndirərək bir çox ölkə xaricində sərgilərdə, konfranslarda iştirak etmişdir.

Beynəlxalq fəaliyyət və muzeylərarası mübadilə nəticəsində Azərbaycanın ədəbi irsinin zənginliyini dünyaya çatdırılmasına xidmət etdi. Bundan əlavə, Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyinin bir sıra regional filialları fəaliyyət göstərir. Bunlara Kürdəmir şəhərində yerləşən Aran Regional Şöbəsi, Sergey Yesenin adına Azərbaycan-Rusiya ədəbi əlaqələr filialı və Xurşidbanu Natəvan adına Qarabağ filialı daxildir. Nizami Gəncəvinin Gəncə şəhərində isə 1982-ci ildə onun xatirəsinə həsr olunmuş muzey yaradılmışdır. 2013-cü ildə Heydər Əliyev Fondunun dəstəyi ilə həmin şəhərdə, şairin məqbərəsinin yerləşdiyi ərazidə müasir üslubda yeni bina inşa edilmişdir [3].

Azərbaycanda şair və yazıçılara həsr olunmuş, mədəniyyətin inkişafına dəyərli töhfələr vermiş şəxsiyyətlərin adını daşıyan ədəbi-xatirə muzeyləri həm paytaxtda, həm də regionlarda geniş yayılmışdır. Respublikada fəaliyyətə başlayan ilk xatirə muzeyi yazıçı və filosof Mirzə Fətəli Axundovun ev-muzeyidir. Bu muzey 1940-cı ildə Şəki şəhərinin tarixi "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğunun ərazisində yaradılmışdır. Axundovun uşaqlıq və gənclik illərinin bir hissəsini keçirdiyi bu ev təxminən 1800-cü ildə Şəki memarlıq üslubunda, çiy kərpicdən tikilmiş və iki kiçik otaqdan ibarətdir. Sonralar ərazidə əlavə tikili inşa olunmuş və yazıçının həyat və yaradıcılığına dair ekspozisiya təşkil edilmişdir. Muzey 2011–2012-ci illərdə əsaslı təmir olunmuşdur.

Muzeydə mütəmadi olaraq Mirzə Fətəli Axundovun irsinə həsr olunan müxtəlif mədəni və maarifləndirici tədbirlər, həmçinin tematik sərgilər keçirilir. Axundovun ömrünün böyük hissəsini keçirdiyi Tiflis şəhərində də ona həsr olunmuş xatirə muzeyi fəaliyyət göstərir. Bu muzeydə yazıçıya aid sənədlər, əlyazmalar, medallar, kitablar, qızına məxsus tikiş maşını və fotoşəkillər nümayiş etdirilir [4].

Tiflisdəki muzeyin nəzdində Gürcüstan azərbaycanlılarının Mədəniyyət Mərkəzi fəaliyyət göstərir. Bu mərkəz daxilində şəhərin yeganə azərbaycandilli kitabxanası, incəsənət qalereyası və "Monsieur Jordan" adlı kafe-ədəbi kitabxana yerləşir. Muzeyin zallarından biri Azərbaycan mədəniyyətinə, digəri isə Azərbaycan-Gürcüstan dostluğuna həsr olunmuşdur. Qeyd edək ki, Mirzə Fətəli Axundovun məzarı Tiflis Botanika bağı ərazisində yerləşir.

Azərbaycanda ədəbiyyat xadimlərinə həsr olunan çoxsaylı muzeylərə Naxçıvan Muxtar Respublikasında da rast gəlinir. Hazırda burada tanınmış yazıçı, dramaturq və ictimai xadim Cəlil Məmmədquluzadənin xatirəsinə həsr olunmuş üç ev muzeyi fəaliyyət göstərir. Bu muzeylərdən biri onun doğulub boya-başa çatdığı Naxçıvan şəhərində, digərləri isə müəllimlik fəaliyyəti ilə bağlı olmuş Babək rayonunun Nehrəm kəndində və Şərur rayonunun Cəlilkənd kəndində yerləşir.

Bundan əlavə, Cəlil Məmmədquluzadənin 1920–1932-ci illərdə yaşayıb-yaratdığı Bakı şəhərindəki mənzilində də ev-muzeyi yaradılmışdır. Beş otaqdan ibarət ekspozisiyada ədibin və digər mollanəsrəddinçilərin həyat və fəaliyyətini əks etdirən zəngin eksponatlar sərgilənir. Burada C. Məmmədquluzadənin uşaqlıq və gənclik illəri, təhsil və müəllimlik fəaliyyəti, ilk yaradıcılıq nümunələri, publisistik və ədəbi irsi haqqında məlumat verən materiallar nümayiş olunur. Muzeyin ekspozisiyasında həmçinin onun əsərlərinin yayılma coğrafiyasını göstərən tematik xəritə də təqdim edilir. Bu muzey Cəlil Məmmədquluzadə və onun silahdaşlarının – mollanəsrəddinçilərin – irsinin toplanması, öyrənilməsi və təbliği istiqamətində mühüm fəaliyyət göstərir. Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Dövlət Ədəbiyyat Muzeyi də böyük ədibin adını daşıyır [5].

Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyi 25 dekabr 1965-ci ildə yaradılmışdır. Muzeyin fondunda 20 mindən artıq eksponat qorunub saxlanılır. Bu eksponatlar arasında Azərbaycan ədəbiyyatı tarixini əks etdirən qiymətli əlyazmalar, tətbiqi və təsviri sənət nümunələri, qədim və müasir kitablar, dövri mətbuat nümunələri, şəxsi xatirə əşyaları və digər muzey materialları yer alır [5].

Ekspozisiya klassik və çağdaş Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinə, o cümlədən Naxçıvan torpağının yetirdiyi şair və yazıçıların, sənətşünasların yaradıcılığına geniş yer ayırır. Muzeyin Şərur rayonunda fəaliyyət göstərən Cəlilkənd filialında isə tanınmış Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadəyə aid sənədlər, fotoşəkillər və şəxsi əşyalar sərgilənir. Bu muzey Azərbaycan ədəbiyyatının zəngin irsinin qorunması və gələcək nəsillərə çatdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

**Ədəbiyyat muzeylərində memarlıq mühiti ilə ekspozisiyanın vəhdəti.** XXI əsr mədəni mühitə dəyişikliklər gətirdi. Bu proses, muzeyin transformasiyası, ekspozisiya və sərgilərin yaradılması ilə başladı. 1970-ci illərdə D. Cameron tərəfindən təklif olunan muzeyin kommunikativ fəaliyyət modeli hazırda ilkin əhəmiyyətini daha da genişləndirir. Hazırda bu anlayış A. A. Korneyevin irəli sürdüyü “ Muzey əşyası ilə ziyarətçi arasındakı dialoq ” kimi deyil, öncədən düşünülmüş ssenari əsasında qurulan dialoqdur. Artıq müasir muzey performativ muzeyi kimi təsnif edilir. Muzey kommunikasiyası tamaşa kimi qurulur, yəni əvvəlcədən iştirakçıların bir-birlərinə qarşı davranışları müəyyənləşdirilir. Muzey məkanı performativ hesab edilir, muzeyin memarları, dizaynerləri və menecerləri əldə olan obyekt və predmetlərdən istifadə edərək teatral mühit qurur, ziyarətçilərə artıq hazır məkan təklif edirlər. Muzeyşünaslıqda performativlik anlayışı 2000-ci illərdə istifadə edilmişdir. Muzeyin performatizasiya vəzifəsi dedikdə, maarifçi düşüncə tərzinin eksklüziv xarakterini tənqid edən radikal pedaqoji strategiya nəzərdə tutulur. Əsas məqsəd ziyarətçilər və muzey mədəniyyəti arasında açıq diskursiv sahənin yaradılmasıdır.

Rusiyanın füsünkar təbiətinin ağuşunda yerləşən, sadəliyi ilə seçilən Yasnopolyansakaya mülkünü misal göstərə bilərik. Rus yazıçı, publisist və filosof Lev Nikolayeviç Tolstoy burada anadan olub və ömrünün böyük hissəsini və yaşayıb yaradmışdır. Yasnaya Polyanada ekspozisiya sahəsi mülkün bütün hissəsini təşkil edir. Bu, yalnız memarlıq ansamblı deyil, həmçinin bağlar, meşələr və parklardır. Muzey işçiləri mülkün ilkin vəziyyətini XIX əsrin modelinə uyğun olaraq, qorumağa çalışır. Misal üçün bu sahədə keçmişdə olduğu kimi atçılıq, arıçılıq, yayda ot biçimi, əkinçilik və istixana fəaliyyəti mövcuddur. Yazıçının evlərinin və mülkünün dizaynı 1910-cu ilin üslubuna uyğun qorunub saxlanılmışdır. Belə məkanlarda eksponatları bir otaqdan digərinə köçürmək və əvəz etmək olmaz, çünki bu zaman memoriallığı pozulur. Evin memarlıq üslubu, otaqların və əşyaların yerləşməsi, ekskursiyanın məzmununu və gedişatını təyin edir. Bu muzeydə məkan memarlığı ilə ekspozisiya arasındakı əlaqə, muzeyin açılışından əvvəl də qoyulmuşdur. Ədəbiyyat muzeylərinin əksəriyyəti muzey üçün nəzərdə tutulmayan binalarda yerləşir. Üstəlik, bəziləri də bu məkanlarda geniş insan kütlələrinə xidmət göstərə bilmir. Belə məkanların əsas çatışmayan cəhəti kiçik sərgi sahələridi. Belə muzeylər yazıçının zövqünü əks etdirir və onun “memarlıq təxəyyülünün” təcəssümüdür. Dünyada ədəbiyyat muzeyi üçün xüsusi olaraq tikilmiş binalar demək olar ki, çox azdır. Belə muzeylərin memarlığı yazıçının düşüncə tərzinin metaforasına çevrilir.

Müasir Çin Ədəbiyyatı Muzeyi dünyanın ən böyük dövlət səviyyəli ədəbiyyat muzeyi, eyni zamanda nəzəri tədqiqat və ədəbiyyat mübadiləsi üçün məlumatların saxlandığı kitabxana və arxiv kimi xidmət edir. Burada müasir Çin yazıçılarına aid ədəbi əsərlər, əlyazmalar, tərcümələr, məktublar, gündəliklər və digər məlumatlar, tənqid və jurnal və qəzet məqalələri var. Sahəsi 320 kvadratmetr olan çoxfunksiyalı zal beş dilə sinxron tərcümə təklif edilir. Sahəsi 820 kvadrat metrə öəçüsündə olan, yığcam kitab rəflərdə, kompüter axtarışı üçün mövcud olan 110.000 nüsxə kitab var. 270 kvadratmetrlik əlyazma kolleksiyası Çində ən böyük və ən nüfuzlu kolleksiyadır və təxminən 11.000 nüsxə əlyazmaya malikdir. Mərhum yazıçı və dramaturq Lao Şenin oğlu, muzeyin baş mühafiz Şu İ-nin sözlərinə görə, muzeyin yeni binası tamamilə dövlət büdcəsilə maliyyələşdirilib. Müasir tikilidə 100 yaxın yazıçının fərdi kitabxanaları yaradılmışdır.

Muzeyin digər boş sahəsində bura maddi gəlir gətirəcək çin və xarici yazıçılar və məşhurlar üçün istirahət otaqları da daxil olmaqla köməkçi otaqlar tikilmişdir. Ümumilikdə muzeyin 55 ekspozisiya zalı var. Muzeyin qurulmasından (1985-ci ildən bəri) muzey işçiləri 300.000-dən çox eksponat - əlyazmalar, məktublar, fotoşəkillər, audio və video kasetlər və yazıçılarla əlaqəli kitablar, jurnallar eksponat toplayırdılar. Yeni binadakı eksponatların əksəriyyəti, Pekinin qərbində yerləşən Vanşusidəki köhnə muzeydən gətirilmişdir. Yeni muzeyin açılışı bir çox qocaman yazarlaın, əlyazmalarını və kitablarını buraya göndərməsinə səbəb oldu. Yeni binanın təməli 25 noyabr 1996-cı ildə qoyulub. İnşaat 1998-ci ilin fevralında başlayıb və 1999-cu ilin sentyabrında tamamlanmışdır. Muzey 2000-ci il mayın 23-də ziyarətçilərini qəbul etməyə başladı. Bu məkan özündə müasir Çin ədəbiyyatı nümunələrinin saxlanma mərkəzini, ədəbiyyat sərgisini, kitabxananı və arxivi birləşdirərək, xəzinəyə çevrildi və onların araşdırılması üçün baza oldu. Müasir Çin Ədəbiyyatı Muzeyinin

yaradıcısı, Cin Ədəbiyyatı korifeyi Ba Çzindir. Muzey Pekinin Asiya Oyunları kəndində (keçmiş Vanşou məbədi ərazisində) yerləşir. Çin memarlığı üslubunda tikilmiş üç mərtəbəli, divarları qırmızı rəngə boyanmış, şəbəkəli pəncərələri və maili dam örtüyü olan binada yerləşir. Pekin Ədəbiyyat Muzeyininin ərazisi bahar havası ilə doludur, muzeyin daxili həyətində, çiçəklənən gavalı ağacları arasında gəzərkən, ədəbi atmosferə daxil olub ondan zövq ala bilərsiniz. Burada həmçinin kiçik göl və ətrafındaki çəmənlikdə 13 yazıçının heykəllərini də görə bilərsiniz. Dünyada sırf Çin ədəbiyyatına həsr olunmuş ən böyük bina bu muzeyə aiddir.

Memarlıq quruluşu həmişə ekspozisiyanın ayrılmaz hissəsi olmuşdur. Muzeyin geniş sərgi məkanında keçirilən sərgi ilə, dar məkanda nümayiş edilən sərgi həmişə fərqlənir. Buna misal olaraq butün ədəbiyyat muzeyləri arasında öz unikal interyeri ilə seçilən İsrail Muzeyi tərkibində Kitab Məbədi Muzeyini qeyd etmək olar. Kitab bəşəriyyətin ən böyük xəzinələrindən biridir. Həm ədəbiyyat, həm də ümumi biliklər dini mətnlərdən və kitablardan başlayırdı. Müasir dövrdə hər bir muzey dizayneri ilk növbədə insanların düşüncəsinə təsir edəcək və yadda qalan memarlıq quruluşundan istifadə etməyə çalışır. Bu muzeyin memarlığına diqqət yetirdikdə ilk növbədə rəng, forma və faktura önə çıxır. Memar təsadüfi deyil ki, binanın tavanında ağ gümbəzdən və divarları isə qara bazaltdan olmasını seçmişdir. Ağ gümbəz – xeyiri, qara bazalt isə - şər qüvvələri təcəssüm etdirir. Kitab məbədinin daxili interyeri, muzeyin ən məşhur və qiymətli eksponatları sayılan (burulmuş və vertikal yazılardan ibarət) kağız, perqament, papirus üzərində yazılan mətnlər və səlnamələrin aid olduğu dövrü xatırladır. Bu dünyada ən qədim hesab edilən İncilə aid "Ölü Dəniz" əlyazmaları adlandırılır. Bu əlyazmalar 1947-1956-cı illərdə Vadi Kumran, Vadi Murabbat və İsrailin bəzi səhralıq ərazilərində yerləşən mağaralarından aşkar edilmişdirlər. Təqdqiqatlar nəticəsində tapılan manuskriptlər mühim tarixi, dini və linqvistik önəm daşıyır. Alimlər mətnləri təqribən e.ə. III – b.e. I əsrinə aid edirlər. Əlyazmalar kövrək və həssas olduğundan, ekpozisiyada toplu şəkildə deyil, növbəylə nümayiş etdirilirlər. Ekspozisiyada bir neçə ay qaldıqdan sonra, xüsusi saxlanc yerinə göndərilir və orada özünəməxsus bərpa prosesindən keçir. Günümüzdədə əlyazmalar özündə müəəyən tarixi prosesin şahidi kimi təkcə yahudilərin deyil eləcədə müxtəlif milliyyətlərdən olan ziyarətçilərin marağına səbəb olur .

Nizami muzeyinin binasının memarlığı. Muzeyin Bakının mərkəzində ucalan üçmərtəbəli binada yaradılmasını qərara alan Xalq Komissarlar şurası əvvəllər mehmanxana və dövlət idarəsinin yerləşdiyi sözügedən binaya memarlıq baxımından muzeyin məzmununa uyğun dizayn verilməsi barədə xüsusi qərar çıxarmışdı. Bu məsələ ilə əlaqədar xüsusi bir komissiya da təşkil edilmişdi.

Nizami muzeyinin yaradılması barədə qərar Nizami Gəncəviyə və onun yaradıcılığına xüsusi məhəbbət bəsləyən Azərbaycan şair və mütəfəkkirlərində, elm adamlarında böyük marağa səbəb olmuşdu. Alimlər, yazıçılar, rəssamlar, heykəltaraşlar, musiqiçilər və digər sənət nümayəndələri böyük həvəslə Nizami muzeyi üçün eksponatlar hazırlamaq üçün işə başladılar. Azərbaycanın istedadlı rəssamları muzey üçün yeni əsərlər yaratdılar. Memarlardan S.Dadaşov və M.Hüseynovun layihəsi ilə muzey binası Azərbaycan memarlığı üslubunda yenidən işləndi. Bu işdə əlvan mayolika, ornamentlər və bədii oyma kimi memarlıq üslublarından istifadə edildi. Ümumi memarlıq üslubuna uyğun olaraq, dördüncü mərtəbənin tikilməsi binanın zahiri görkəmini daha da gözəlləşdirərək onu əvvəlkindən də əzəmətli etdi.

Sülh illərində Nizami dövrünü geniş miqyasda araşdırmağa başlayan və əldə etdikləri nəticələri Nizami almanaxı, İnqilab və mədəniyyət kimi jurnallarda nəşr etdirən alimlər, müharibə illərində də elmi fəaliyyətlərini davam etdirərək, bir sıra fundamental tədqiqat əsərləri qələmə almışlar. Bu dövrdə Nizami dövrünün ictimai-siyasi və iqtisadi strukturu ilə yanaşı, XII əsrin elmi, ədəbiyyatı, memarlığı, musiqisi, fəlsəfəsi və digər sahələrini əhatə edən çoxsaylı elmi məqalə və kitablar nəşr olunmuşdur. Xüsusilə, 1943-1944-cü illərdə çapdan çıxan iki cildlik "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi" Nizami Muzeyinin ekspozisiyasının formalaşdırılmasında mühüm elmi baza rolunu oynamışdır [1, s.13].

**Nəticə.** Aparılmış araşdırmalar göstərir ki, ədəbiyyat muzeylərində ekspozisiya tərtibatı yalnız eksponatların ardıcıllığı və yerləşdirilməsi ilə məhdudlaşmır, eyni zamanda ziyarətçiyə emosio-

nal-estetik təsir göstərən və onun düşüncə dünyasına nüfuz edən mürəkkəb bir ünsiyyət vasitəsidir. Ekspozisiyanın uğurlu tərtibatı üçün məzmun və forma arasında balansın qorunması, seçilən eksponatların kontekstual əlaqələndirilməsi və müasir təqdimat vasitələrindən istifadə zəruridir. Milli və bəşəri dəyərlərin sintezi, muzeylərin maarifləndirici funksiyasının gücləndirilməsi və interaktiv yanaşmaların tətbiqi ədəbiyyat muzeylərini daha cəlbedici və funksional edir. Bu baxımdan, ekspozisiya tərtibatına sistemli və elmi yanaşma muzeyin ümumi təsir gücünü artırmaqla yanaşı, onun cəmiyyətin mədəni-mənəvi həyatında tutduğu yeri də möhkəmləndirir.

## ƏDƏBİYYAT SİYAHISI

1. Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyinin əsərləri. – I cild. – Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1961. – 179 s.

2. Калинин И. А. Искусство как прием воскрешения слова: Виктор Шкловский и философия общего дела //Новое литературное обозрение. – 2015. – №. 3.

3. https://az.wikipedia.org/wiki/Xurşid-banu_Natəvan

4. https://shaki.info/wiki/index.php?title=Mirzə_Fətəli_Axundovun_ev_muzeyi&mobileaction=toggle_view_desktop

5. https://az.wikipedia.org/wiki/Cəlil_Məmmədquluzadənin_ev-muzeyi_(Bakı)

**Нигяр Катиб ИБРАГИМЛИ**
Докторант Музея национальной азербайджанской литературы
имени Низами Гянджеви НАНА

## ХАРАКТЕРНЫЕ ОСОБЕННОСТИ ОФОРМЛЕНИЯ ЭКСПОЗИЦИЙ В ЛИТЕРАТУРНЫХ МУЗЕЯХ

### Резюме

В статье анализируются основные принципы экспозиционного проектирования в литературных музеях и характерные черты, присущие этой сфере. Литературные музеи — это не только места экспонирования литературного наследия, но и важные культурные центры, где сохраняется историческая память и осуществляются образовательные функции. В этом контексте особое значение приобретает структурная структура экспозиции, единство содержания и формы, эстетическая подача, применение современных технологий. Автор подчеркивает важность гармонизации национально-нравственных ценностей и научных подходов при оформлении выставок, демонстрирует системный подход к теме, основанный как на местном, так и на международном опыте. Результаты исследования важны с точки зрения формирования теоретических и практических основ в области выставочного дизайна.

Актуальность темы исследования заключается в том, что в азербайджанской и мировой практике экспозиционное оформление литературных музеев формируется с использованием различных подходов, и существует необходимость в системном научном анализе в этой области. Гармонизация национальных, эстетических и функциональных критериев при оформлении экспозиций, посвященных жизни и деятельности исторических личностей, применение современных технологических средств, развитие интерактивных подходов являются одними из основных факторов, обеспечивающих динамичное развитие этого направления.

Целью статьи является анализ принципов формирования экспозиционной планировки литературных музеев, их структурных особенностей и методов презентации, а также систематизация теоретических и практических подходов в этой области путем сравнительного анализа существующих практик.

**Ключевые слова:** литературный музей, экспозиционный дизайн, музееведение, культурное наследие, принципы презентации

**Nigar Katib IBRAHIMLI**
PhD Student at the National Museum of Azerbaijani Literature named after Nizami Ganjavi, ANAS

## CHARACTERISTIC FEATURES OF EXHIBITION DESIGN IN LITERARY MUSEUMS

**Summary**

The article analyzes the basic principles of exhibition organization in literature museums and the characteristic features inherent in this area. Literature museums are evaluated not only as places where literary heritage is demonstrated, but also as important cultural centers where historical memory is preserved and educational functions are implemented. In this context, the structural structure of the exhibition, the unity of content and form, aesthetic presentation and the application of modern technologies are of particular importance. The author emphasizes the importance of harmonizing national-moral values and scientific approaches in the design of exhibitions, and demonstrates a systematic approach to the topic based on both local and international experience. The results of the study are important in terms of forming theoretical and practical foundations in the field of exhibition design.

The relevance of the research topic is that in Azerbaijani and world practice, the exhibition design of literature museums is formed with different approaches and there is a need for systematic scientific analysis in this area. The harmonization of national, aesthetic and functional criteria in the design of exhibitions on the life and work of historical figures, the application of modern technological tools, and the development of interactive approaches are among the main factors ensuring the dynamic development of this area.

The purpose of the article is to analyze the principles of formation of exhibition design in literature museums, their structural features and presentation methods, and to systematize theoretical and practical approaches in this area by comparatively reviewing existing practices.

**Keywords:** literature museum, exhibition design, museology, cultural heritage, presentation principles

**Daxil olub:** 12.02.2025